Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 178 (8201) ŞƏNBƏ, 17 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qafqazın logistika və tranzit məkanı

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə açıq dənizə çıxışı olmayan Azərbaycan ölkələri birləşdirir

Əlverişli coğrafi mövqeyindən yararlanaraq Avrasiya məkanının mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan həm də Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi qəbul edilir.

Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyin təminatına töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan isə bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir. Yəni artıq nəqliyyat-logistika aspektində Azərbaycan regionun mərkəzi qovşağına çevrilib. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

Azərbaycanın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və 2018-ci ildə Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunəsidir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

3 il öncə hazırlanan logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində də bütün bunların reallaşması üçün hədəflər müəyyənləşib. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-2025-ci illər və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən edir. Sənəddə logistika üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflər konkret ifadəsini tapıb. Eyni zamanda həmin məqsəd və hədəflərə çatmaq üçün prioritetlər müəyyənləşdirilib. Daha konkret səviyyədə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanıb.

Nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi qarşıya qoyulan ən ümdə hədəflərdən biridir. Onu da əlavə edək ki, bu gün Azərbaycan dəmir yolu infrastrukturunun müasirləşdirilməsinə sərmayə yatırır. Çindən Avropaya və geriyə yükdaşımalar üçün ən qısa nəqliyyat marşrutu olan, Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmiryol xətti bunun əyani sübutudur.

Cənab İlham Əliyev bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən bildirib: "Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

Ölkənin tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində mühüm yer tutur. Son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində həyata keçirilən layihələrə nəzər yetirsək bunu aydın şəkildə görərik.

Bu gün mövcud nəqliyyat-tranzit imkanları Azərbaycana iqtisadi dividendlər qazandırmaqdadır. Təkcə bu ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. İqtisadiyyat Nazirliyində keçirilən geniş kollegiya iclasında nazir, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının sədri Şahin Mustafayev vurğulayıb ki, bu ilin birinci yarısında da ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib.

*Ardı 2-ci səh.*

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İndoneziya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2019-cu il*

## Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinə

Hörmətli sərhədçilər!

Sizi Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

1919-cu il avqust ayının 18-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən qəbul olunmuş qanunla ilk sərhəd mühafizə orqanları yaradılmış və bununla da Azərbaycan Sərhəd Mühafizəsinin əsası qoyulmuşdur.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyin əsas atributlarından olan dövlət sərhədlərinin qorunması, eyni zamanda, Ermənistanın təcavüzü nəticəsində pozulmuş sərhədlərimizin bərpası dövlətimiz qarşısında duran ən vacib vəzifəyə çevrilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizin dövlət sərhədlərinin mühafizəsinə xüsusi önəm vermiş və 2002-ci il iyulun 31-də Dövlət Sərhəd Xidmətini yaratmaqla Azərbaycan Sərhəd Mühafizəsinin gələcək inkişaf yolunu müəyyən etmişdir.

Ümummilli Lider Heydər Əliyevin sərhədlərin mühafizəsi məsələlərinə göstərdiyi xüsusi diqqət bu gün də davam etdirilir. Son illər ərzində Dövlət Sərhəd Xidmətinin idarəetmə sistemi təkmilləşdirilmiş, müasir radiorabitə və telekommunikasiya sistemlərinin tətbiqi genişləndirilmiş, dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarətinin təşkili beynəlxalq standartlar səviyyəsinə qaldırılmışdır. Sərhəd Qoşunlarının döyüş hazırlığı və maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il iyunun 12-də imzaladığı sərəncamla Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması bu sahədə peşəkar, vətəninə və dövlətinə sadiq kadrların hazırlanması işinə böyük töhfə vermişdir.

Hazırda Dövlət Sərhəd Xidməti çevik, mütəşəkkil, yüksək intizama və döyüş hazırlığına malik, ən müasir silah və texniki vasitələrlə təchiz edilmiş, sərhədlərin toxunulmazlığının təmin edilməsi sahəsində üzərinə qoyulan vəzifələri icra etməyə qadir mühüm dövlət təsisatıdır.

Sərhəd mühafizə orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və xidmətlərinə görə mükafatlandırılması məsələləri daim dövlətimizin diqqət mərkəzindədir.

Əminəm ki, sərhəd mühafizə orqanlarının şəxsi heyəti dövlət sərhədlərimizin qorunması sahəsində mühüm vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəkdir.

Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətçiliyimiz üçün önəmli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2019-cu il*



## Daha 660 min təqaüdçünün pensiyası artacaq

Ölkədə həyata keçirilən uğurlu islahatlar sayəsində əhalinin, xüsusilə aztəminatlı təbəqənin sosial müdafiəsi daha da güclənir, həyat səviyyəsi yüksəlir. Prezident İlham Əliyev ötən ilin sonunda cari ildə əhalinin sosial müdafiəsində əsaslı dəyişikliklər olacağını bəyan etdi. Bundan sonra ölkə əhalisinin müxtəlif kateqoriyadan olan vətəndaşlarının sosial müdafiəsini daha da gücləndirmək məqsədilə bir sıra fərman və sərəncamlar imzaladı.

O cümlədən, xəbər verildiyi kimi, dövlət başçısı 2019-cu il avqustun 14-də "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" fərman imzalamışdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin cari ildə təqdim etdiyi və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların atılmasını təmin edən sosial islahatlar paketində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə pensiya artımı xüsusi yer tutur. Belə ki, bundan əvvəl minimum pensiya 2019-cu il martın 1-dən 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdı və həmin artım 233 min vətəndaşı əhatə etmişdi. Yeni qanunla pensiyanın minimum məbləğinin 200 manata çatdırılması isə 660 min nəfər pensiyaçını əhatə edəcək.

Bununla da dövlət başçısının sosial islahatlar paketinin tərkib hissəsi kimi, ölkəmizdə əmək pensiyasının minimum məbləği bu il ərzində 72,4 faiz artırılmış olur.

*Ardı 3-cü səh.*

Deməsək olmur

## Tacı yerə qoymazlar

### Milli Park milli əxlaqımızı nümayiş etdirməlidir

Bakı dünyanın ən gözəl şəhərləri sırasındadır. Bunu biz də bilirik, əcnəbilər də! Ölkəmizə gələn qonaqların əksəriyyəti etiraf edir ki, Bakı ruhunda Qərb və Şərq mədəniyyətinin sintezini yarada bilən və milyonları heyrətləndirmək gücünə qadir olan unikal şəhərdir.

Qız qalasının ayağından Dənizkənarı bulvaradək qısa bir yolda gördüklərin sənə minillik bir tarixə qovuşmağa, müasirliklə uzaq keçmişin vəhdətindən doğan nadir məkanla tanış olmağa imkan yaradır. Ümumiyyətlə, müasir Bakının hər küçəsində, parkında, hətta hər qarışında bu şəhərin keçmişi ilə bağlı əfsanələr dolaşır. Bu şəhər hər birimizin və hamının sevgisinə layiqdir. Bizim şəhəri yuxularında görənlər, ona qovuşmaq üçün ürəyi gizildəyənlər də var.

Amma Bakı cəmi 110-120 il əvvəl dünyanın ən qanlı-qadalı və təhlükəli şəhərlərindən biri idi. Onun küçələrində erməni "mauzeristlər"i, "piştonçular" ləqəbini daşıyan yerli qoçular və bolşeviklərin quldur dəstələri "razborkalar" aparar, varlı adamları oğurlayıb pul qazanar, bir sözlə, şəhərdə ağalıq edərdilər. Bu şəhərdə əmin-amanlıq yaratmaq o zaman müşkül iş idi. İldə qətlə yetirilənlərin sayı 500-ə çatardı! Bakıya neftin qoxusuna gələn varlı iş adamları ilə bərabər qatı cinayətkarlar da asan qazanc dalınca axışırdı...

Kimin ağlına gələrdi ki, Bakı nə vaxtsa acı keçmişi ilə vidalaşacaq və hər daşında bir əfsanə yaşadan bənzərsiz şəhərə çevriləcək?! Kimin ağlına gələrdi ki, nə zamansa bu şəhərdə gecəsindən və gündüzündən asılı olmayaraq, istədiyin vaxt istədiyin yerə gedə biləcəksən və kimsə də sənə dəyib-dolaşmayacaq?!

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ildırım sürəti ilə inkişaf etdi, adi sovet Bakısı sosialist qiyafəsini dəyişdi və göydələnlər şəhərinə çevrildi. Nəhəng, müasir və təkrarsız parklar, dünyanın ən məşhur memarlarının təxəyyülündən yaranan nadir memarlıq nümunələri şəhərin simasını dəyişdi, ona kübar və zəngin görkəm verdi.

*Ardı 5-ci səh.*



## Sənaye və kənd təsərrüfatı məhsullarının istehsalında xeyli artım var

Qeyri-neft sektorunun inkişafı strateji mahiyyət daşıyan bir neçə problemin həllinə imkan yaratmışdır. İlk növbədə ərzaq sarıdan ölkənin daxili tələbatı ödənməklə nəinki idxaldan asılılıq azalmış, hətta ixrac potensialı artmışdır. Bundan başqa, əhalinin məşğulluğunun təmin olunması istiqamətində yüksək nəticələr əldə edilmiş, kiçik və orta sahibkarlığın inkişafı sürətlənmişdir.

Bunu Tovuz rayonunun timsalında da görmək olar. Cari ilin birinci yarısında qazanılan uğurlar onu deməyə əsas verir ki, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı davamlı tədbirlərin həyata keçirilməsi nəticəsində makroiqtisadi göstəricilərdə dinamik artım müşahidə olunur. Belə ki, 6 ayda rayon üzrə sənaye məhsullarının istehsalı 19,4, kənd təsərrüfatı məhsulları istehsalı 25,6, orta aylıq əməkhaqqı 36,3 faiz artmışdır.

Əvvəlki illərdən fərqli olaraq rayon iqtisadiyyatına yönəldilən investisiyaların həcmində də artım olmuşdur - 56,9 faiz. Həmin hesaba tikinti-quraşdırma işlərinin həcmi xeyli artmış, rayon mərkəzində, kənd və qəsəbələrdə abadlıq işləri aparılmışdır. Tovuz şəhərində Aşıq Hüseyn Bozalqanlı adına Aşıq Sənəti, Tarix-Diyarşünaslıq və Bayraq muzeyləri təmir olunmuş, Qovlar şəhər 2 saylı uşaq bağçasının tikintisi başa çatdırılmış, Alakol kənd orta məktəbinin, "Asan xidmət" mərkəzinin, "ABAD" bitkilərin qurudulması və emalı müəssisəsinin tikintisi sürətlənmişdir.

*Ardı 5-ci səh.*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Abbas Sultan oğlu Xəlilova
general-mayor Ehram Arif oğlu Hacıyevə

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Ramin Sabir oğlu Bağırova

**"kontr-admiral" hərbi rütbəsi**

1-ci dərəcəli kapitan Abbas Hüseyn oğlu Qiyasova
1-ci dərəcəli kapitan Ziyad Balakərim oğlu Ağayevə

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına və mülki işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası sərhəd mühafizə orqanlarının yaranmasının 100 illiyi münasibətilə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına və mülki işçilərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Quliyeva Şöhrət Rüfət qızı

**"Əməkdar həkim"**

Məmmədov Fariz Nurəddin oğlu - tibb xidməti polkovnik-leytenantı
Abasov Rahil Fəyaz oğlu - tibb xidməti mayoru

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**

Mirzəyev Elşən Cəbrayıl oğlu - polkovnik
Həsənov Adil Məmməd oğlu

**"Əməkdar mühəndis"**

Mustafayev Elman Tapdıq oğlu - polkovnik
Yusifov Azər Əlfrat oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası sərhəd mühafizə orqanlarının yaranmasının 100 illiyi münasibətilə və dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**1-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Quliyev Elçin İsağa oğlu - general-polkovnik

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Mehdiyev İlham İsmayıl oğlu - general-leytenant
Tağıyev Rəsul Afiq oğlu - general-mayor
Məhərrəmov Aqşin Ramiz oğlu - polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əkbərov İsmayıl Bayram oğlu - general-leytenant
Xəlilov Əsgər Sabir oğlu - general-leytenant
Abdullayev Cavid Mirhəmzə oğlu - general-mayor
Mirzəyev Nəsib Tahir oğlu - polkovnik-leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Tağıyev Niyaməddin Məhərrəm oğlu - general-mayor
Nəzərov Təyyar Şahmurad oğlu - polkovnik
Qurbanov Babək Vahid oğlu - polkovnik-leytenant
Sultanov Vüsal Eynulla oğlu - polkovnik-leytenant
Rzayev Emin Salam oğlu - leytenant

**"Vətən uğrunda" medalı ilə**

Abdullayev Şaiq Xəlil oğlu - polkovnik
Quliyev İlqar Vaqif oğlu - ədliyyə polkovniki
Rəhmanov Elşən Sabir oğlu - polkovnik
Əliyeva Zərifə Əli qızı - tibb xidməti polkovniki
Ağalarov Anar Rəşid oğlu - polkovnik-leytenant
Bədəlov Fərhad Hacı oğlu - polkovnik leytenant
Əliyev Elçin Ərşad oğlu - polkovnik-leytenant
Abdullayev Xanlar Tofiq oğlu - 3-cü dərəcəli kapitan
İsmayılov Samir Əlimusa oğlu - mayor
Quliyev Nəhməd Səxavət oğlu - 3-cü dərəcəli kapitan
Ələkbərov Babək Mürsəl oğlu - kapitan
Hüseynquliyev Şahin Yusif oğlu - baş leytenant
Səfərov Elvin Sərraf oğlu - baş leytenant
Əzizov Elçin Əvəz oğlu - baş leytenant
Qafarov Zahir Tahir oğlu - baş leytenant
Hacıyev Elnur Rasim oğlu - leytenant
Sultanov Anar Vəlixan oğlu - kiçik gizir
Zamanov Vüqar Allahverdi oğlu - kiçik gizir
Əsgərov Turqut Loğman oğlu - kiçik gizir
Məmmədov Vəli Mərdan oğlu - kiçik gizir
Sadıqov Ramin Məhəmməd oğlu - kiçik gizir

**"İgidliyə görə" medalı ilə**

Məmmədov Baxşəli Musa oğlu - polkovnik
Məmmədov Samir Adil oğlu - polkovnik-leytenant
Şükürüllayev Təyyar Elməddin oğlu - polkovnik-leytenant
Tağıyev Ələddin Məzəddin oğlu - mayor
Ağayev Elgün Mahir oğlu - baş leytenant
Ömərov Nemət Abdul oğlu - baş leytenant

**"Tərəqqi" medalı ilə**

Hüseynov Ayaz Əvəz oğlu - general-mayor
Abdullayev Azər Zahid oğlu
İmaməliyev Müşfiq Kamal oğlu
Kazım-Nicat Fəxri Fəxrəddin oğlu
Məmmədov Mir Abas Mir Qədir oğlu
Nağıyev Nihad Ramiq oğlu
Nəbiyev Elçin Fikrət oğlu

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Cəfərov Azad Mətləb oğlu - 1-ci dərəcəli kapitan
Hüseynov Zakir Əmir oğlu - polkovnik
Quliyev Mətin Ramiz oğlu - polkovnik
Nuriyev Əziz Məhəmməd oğlu - polkovnik
Abbasov Əhməd Ramazan oğlu - polkovnik-leytenant
Məmmədov Allahverdi Məhəmməd oğlu - ədliyyə polkovnik-leytenantı
Məmmədov Tural Akif oğlu - polkovnik-leytenant
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik-leytenant
Rəhimov İsrafil Əvəz oğlu - polkovnik-leytenant
Salmanov Tərlan Süleyman oğlu - polkovnik-leytenant
Bayramov Şahmar Mübariz oğlu - mayor
İbrahimov İlkin Ələkbər oğlu - mayor
Əkbərov Ramil Yaşar oğlu - mayor
Ələkbərov Murad Mail oğlu - mayor
Əliyev İlkin Nizami oğlu - mayor
Əhədov Cavid Zabil oğlu - kapitan
Hacıyev Teymur Ədalət oğlu - baş leytenant
Hüseynov Mehdi Arif oğlu - baş leytenant
Tomayev Məhəmməd Cavanşir oğlu - baş leytenant
Məmmədov Nurlan Həsən oğlu - leytenant
Nəbili Alpər İbrahim oğlu - leytenant
Rizayev İlçin Telman oğlu - kiçik leytenant
Bəkirov Valeh Təşkilat oğlu - baş miçman
Kazımov Nurəddin Firudin oğlu - baş gizir
Niftullayev Vasid Sadiq oğlu - baş gizir
Bədirov Xəqani Mirqadir oğlu - gizir
Ələkbərov Məhəmmədəli Bayram oğlu - gizir
Həsənov Təbriz Hüseyn oğlu - gizir
Məmmədov Xaliq Mollaəhməd oğlu - gizir
Əzimli Pərvin Əlibaba oğlu - gizir
İbrahimli İsak Zahid oğlu - gizir
Babayev Kamran Əhliman oğlu - kiçik gizir
Hənifəyev Ruslan İbrahim oğlu - kiçik gizir
İbrahimov Nəsimi Məhərrəm oğlu - kiçik gizir
Rəfiyev Yaşar Yusif oğlu - kiçik gizir
Şıxmuradov Kamran Şıxverdi oğlu - kiçik gizir
Təhməzov Kənan Elşən oğlu - kiçik gizir
Məmmədov Mehdi Xanoğlan oğlu - baş çavuş
Məmmədov Səxavət Füzuli oğlu - kiçik çavuş (ölümündən sonra)

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2019-cu il*

## DSX-nin rəhbərliyi və şəxsi heyəti Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib









Dövlət Sərhəd Xidmətinin (DSX) şəxsi heyəti Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümünü dövlətçiliyə xidmətdən irəli gələn qürur və fəxarət hissləri, xidmətdə qazanılmış yüksək nailiyyətlərlə qarşılayır. Azərbaycan Sərhəd Mühafizəsinin hər bir xidməti uğurunun arxasında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqəti, qayğısı və etimadı dayanır.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümü münasibətilə avqustun 16-da Dövlət Sərhəd Xidmətinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyub.



Sərhədçilər görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad edib, məzarı üzərinə tər çiçəklər düzüblər.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş cəsur vətən övladlarının xatirəsi anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub. Azərbaycanın ilk sərhədçi Milli Qəhrəmanı Eldar Məmmədovun da məzarı ziyarət edilib.

## "Azərbaycan Sərhəd Mühafizəsi - 100 il" sənədli filminin təqdimatı olub

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş bayram tədbirləri davam edir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, yubiley münasibətilə Azərbaycan kino sənətinin canlı əfsanəsi, Xalq artisti, kinorejissor Eldar Quliyev "Azərbaycan Sərhəd Mühafizəsi - 100 il" adlı sənədli film çəkib. Film Azərbaycan sərhədçilərinin bir əsrlik tarixini əhatə edir.

Dövlət Sərhəd Xidmətinin aparatında sənədli filmin təqdimatı keçirilib.



Zamanında dahi öndər Heydər Əliyevin, hazırda isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində dövlət sərhədlərinin etibarlı mühafizəsində əldə olunmuş xidməti nailiyyətlərdən, Azərbaycan sərhədçilərinin gündəlik fədakar xidmətindən bəhs edən sənədli film böyük maraqla izlənilib.

Filmin nümayişindən sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev kinorejissor Eldar Quliyevi "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif edib, filmin yaradıcı heyətinə minnətdarlığını bildirib.

***"Azərbaycan"***

# Qafqazın logistika və tranzit məkanı

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə açıq dənizə çıxışı olmayan Azərbaycan ölkələri birləşdirir

*Əvvəli 1-ci səh.*

Bu dövr ərzində "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, 6 ayda "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Bu il aprelin 25-27-də Çin Xalq Respublikasının paytaxtı Pekində keçirilən "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat-tranzit imkanları və bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən vurğulamışdır ki, Azərbaycan dövləti müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla yalnız ölkəni mühüm nəqliyyat mərkəzinə çevirməyib, eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri layihələrində iştirak edən dövlətlər arasında əməkdaşlığa töhfə verib: "Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir".



Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü lap əvvəldən dəstəklədiyini söyləyən cənab İlham Əliyev vurğulayıb ki, bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Xatırladaq ki, Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb və müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən beynəlxalq layihələr regional əməkdaşlığın genişləndirilməsi üçün möhkəm əsaslar yaradıb. Lakin işğalçı Ermənistanla heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Azərbaycanın ərazisindən keçən bütün beynəlxalq layihələrdən Ermənistan təcrid edilib. Bu siyasət münaqişə davam etdiyi müddətdə dəyişməyəcək, işğalçı ölkə çox ağır durumda qalacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Avqustun 16-da İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Masallıda bu rayondan olan vətəndaşları qəbul edib.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həll edilib. İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə ətraflı izahat verilib, bu müraciətlər aidiyyəti strukturlara çatdırılması üçün qeydiyyata alınıb.

Qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin verilməsi, turizm müəssisəsinin genişləndirilməsi, investisiya təşviqi sənədinin alınması, sosial və sair məsələlərlə bağlı müraciət ediblər.

Eyni zamanda, qəbula gələn sahibkarların təklifləri müzakirə olunub, onların heyvandarlıq, çəltikçilik, arıçılıq və sair sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi məsələsinə baxılması məqsədəuyğun sayılıb.

* * *

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli Ağstafada həmin rayonun və Qazax rayonunun sakinlərini fərdi qaydada qəbul edib.

M.Kərimli əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlar barədə vətəndaşları məlumatlandırıb. Qəbul zamanı vətəndaşlar sosial təminat növlərinə hüququn müəyyən edilməsi, əmək hüquqlarının müdafiəsi, tibbi-sosial ekspertiza və reabilitasiya, aktiv məşğulluq tədbirlərinə, özünüməşğulluq proqramına cəlbedilmə və s. məsələlərlə əlaqədar müraciət ediblər.

Müraciətlər nazirliyin aidiyyəti məsul şəxslərinin iştirakı ilə obyektiv şəkildə araşdırılaraq cavablandırılıb, sorğu xarakterli müraciətlərlə bağlı izahatlar verilib. Bir sıra müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar müvafiq tədbirlər görülməsi tapşırılıb. Eləcə də vətəndaşlardan bir qisminin müraciətlərinə əsasən onlara münasib iş yerlərinə göndərişlər verilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## ÜDM istehsalı 2,5 faiz artmışdır

2019-cu ilin yanvar-iyul aylarında ölkədə 44 milyard 473,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 4499,5 manata bərabər olmuşdur.

Bu dövrdə əlavə dəyər informasiya və rabitədə 16,9, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 6,3, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 4,3, sənayedə 3,3, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 2,9, nəqliyyat və anbar təsərrüfatında 2,6, digər xidmət sahələrində 1,7 faiz artmış, tikintidə isə 9,1 faiz azalmışdır.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3, neft-qaz sektorunda isə 1,9 faiz artmışdır.

## Sənayenin qeyri-neft sektorunda 15,8 faiz artım qeydə alınıb

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-iyul aylarında ölkə üzrə 27,3 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 15,8 faiz artmışdır.

Sənaye məhsullarının 70 faizi mədənçıxarma, 25,1 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 2,5 faiz azalmış, əmtəəlik qaz hasilatı 34 faiz artmışdır.

Emal sektorunda isə ağacın emalı və ağacdan məmulatların istehsalı 2,3 dəfə, hazır metal məmulatlarının istehsalı 59,2, kompüter, elektron və optik məhsulların istehsalı 55,4, içkilərin istehsalı 52,2, toxuculuq sənayesi məhsullarının istehsalı 40,9, mebel istehsalı 33,6, kimya sənayesi məhsullarının istehsalı 30,4, kağız və karton istehsalı 28,5, rezin və plastik kütlə məmulatlarının istehsalı 27,2, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 26,4, tütün məmulatlarının istehsalı 25,1, qida məhsullarının istehsalı 18,3, poliqrafiya məhsullarının istehsalı 14,9, maşın və avadanlıqların istehsalı 13,6, tikinti materiallarının istehsalı 7,8, geyim istehsalı 5,6, neft məhsullarının istehsalı 1,4 faiz, əczaçılıq məhsullarının istehsalı 1,3 faiz artmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında da artım qeydə alınmışdır.

# Daha 660 min təqaüdçünün pensiyası artacaq



*Əvvəli 1-ci səh.*

Digər tərəfdən, yeni məbləğlə ölkəmizdə minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələməsi təmin edilir. Həmçinin minimum pensiyanın alıcılıq qabiliyyəti (PPP üzrə) baxımından Azərbaycan MDB-də ilk yeri tutmuş olur.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunda əksini tapan digər tapşırığa uyğun olaraq, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdiriləcək. İndeksləşdirilmə həmin pensiya kapitallarının artımına imkan verəcək ki, bu da sığortaolunanların gələcəkdə yüksək pensiya məbləğləri ilə təminatı üçün mühüm önəm kəsb edir.

Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamları ilə dövlət qulluqçuları, hərbi qulluqçular, ədliyyə, hüquq mühafizə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşları, xüsusi rütbəli şəxslər və başqalarının əməkhaqları ciddi şəkildə artırılıb ki, bu da qanunvericiliyə əsasən xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının da gələn aydan orta hesabla 31 faiz artmasına səbəb olacaq. Həmin şəxslərin çalışdıqları sahələr üzrə əmək haqlarının artımı ilə əlaqədar qanunvericiliyə əsasən onların əmək pensiyaları da yenidən hesablanaraq artırılır.

Beləliklə, dövlət başçısı tərəfindən cari ildə təqdim edilən ikinci sosial paket ümumilikdə 750 mindən çox vətəndaşın pensiyasının ciddi şəkildə artmasına imkan verib ki, bu da ümumən əhalinin sosial müdafiəsinin gücləndirilməsində daha bir mühüm addımdır.

Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə əhalinin sosial müdafiəsinə böyük əhəmiyyət verildiyini vurğulayaraq demişdir: "Bildiyiniz kimi, bu ilin əvvəlindən çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb... Sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı işçi qrupu yaradılıb

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə daşınan yüklərin təhlükəsizliyini və sərnişinlərin rahatlığını təmin etmək məqsədilə işçi qrupu yaradılıb.




AZƏRTAC xəbər verir ki, bu barədə İranın Şəhərsalma və yollar naziri Məhəmməd İslami məlumat verib. Bildirib ki, avqustun 15-də Soçidə İran, Azərbaycan və Rusiyanın nəqliyyat nazirləri arasında görüş keçirilib. Görüşdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması və fəaliyyəti müzakirə edilib. Qərara alınıb ki, tərəflər birgə müəssisələr yaradaraq yük və sərnişinlərin daşınmasında fəal iştirak etsinlər.

Nazir həmçinin qeyd edib ki, müzakirələr səmərəli olub və tərəflər prinsipial məsələlərə dair razılığa gəliblər.

## Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsinin həcmi 120 milyon dolları ötüb

Cari ilin yanvar-iyul aylarında Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 120 milyon dolları ötüb.

Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, hesabat dövründə Azərbaycana Belarusdan idxalın həcmi 109 milyon 62 min dollar, Azərbaycandan Belarusa ixracın həcmi isə 11 milyon 443 min dollar olub.

Ötən il Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 204 milyon dollara yaxın olub ki, bu da 2017-ci ilin analoji göstəricisindən təxminən 56 milyon dollar çoxdur.

Tərəfdaşlarımız

# "İtoçu" və "İnpeks"

### Gündoğan ölkənin bu tanınmış şirkətləri "dəstxət"ini Azərbaycanda da təsdiqləyib

Azərbaycanın beynəlxalq tərəfdaşlıqla həyata keçirdiyi "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi və Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihələrində iki tanınmış Yaponiya şirkəti də iştirak edir. Bunlar "İtoçu" və "İnpeks"dir.




"İtoçu" şirkəti "Əsrin müqaviləsi" adını almış AÇG-yə layihənin həyata keçirildiyi ilk vaxtlardan qoşulub. Şirkət bu layihədə 3,65 faizlik iştirak payına malikdir.

"İtoçu" eləcə də BTC-nin 11 səhmdarından biridir. Onun həmin layihədə 3,4 faiz iştirak payı var. Şirkət SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Türkiyədə tikdiyi nəhəng "Star" neft emalı zavodunun inşasında iştirak edib. Bu da təsadüfi deyil. Çünki "İtoçu" fəaliyyəti şaxələndirilmiş bir korporasiyadır. Məsələn, XX əsrin 70-ci illərində "Saxalin-1" kimi böyük layihəyə qoşulub. XXI əsrin əvvəllərində "Mavi axın" qaz kəmərinin çəkilişində iştirak edib.

Şirkət neft-qaz yataqlarının işlənməsindən, ixrac kəmərlərinin çəkilişindən əlavə, iqtisadiyyatın çoxsaylı sahələrində "imza atır". Məsələn, zavodların və ayrı-ayrı texnoloji qurğuların, o cümlədən neft və qaz emalı, neft kimyası müəssisələrinin, eləcə də elektrik stansiyalarının, sutəmizləyici sistemlərin tikintisində iştirak edir, magistrallar və dəmir yolları çəkir, körpülər salır.

"İtoçu" öz "dəstxət"ini dünyanın onlarca ölkəsində təsdiq edib. Eləcə də qədim neft diyarı Azərbaycanda. Bu, cari ilin iyul ayında Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin həmsədri, "İtoçu" korporasiyasının prezidenti Keita İşi ilə SOCAR-da keçirilən görüşdə də vurğulanıb. Görüşdə yapon şirkətlərinin ölkəmizin neft-qaz sektorunda iştirakı yüksək qiymətləndirilib. "İtoçu" və SOCAR arasında uzunmüddətli əməkdaşlıq əlaqələrinin yarandığı qeyd edilib və bu əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğu bildirilib. Belə ki, iki şirkət arasında bütün istiqamətlərdə və formatlarda əməkdaşlığa maraq var.

Gündoğan ölkənin Azərbaycanın neft-qaz layihələrində iştirak edən digər şirkəti "İnpeks"dir.

"İnpeks" BTC layihəsinə əlamətdar bir gündə qoşulub. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan bu kəmərin təməli qoyularkən Ulu Öndər Heydər Əliyev BTC-nin səhmdarlarının daha bir şirkət sayəsində artdığını bildirdi. Bu, "İnpeks" idi.

Hazırda "İnpeks" BTC-də 2,5 faiz iştirak payına malikdir.

Sonralar şirkət AÇG layihəsində də sanballı iştirak payı aldı. İndi onun bu layihədəki iştirak payı 9,31 faiz təşkil edir.

"İnpeks" uzun illərdir neft-qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi ilə məşğul olan bir şirkətdir. Yaponiyadan başqa, şirkət Cənub-Şərqi Asiya, Yaxın Şərq, Okeaniya, Xəzər dənizi, Afrika və Cənubi Amerika kimi neft-qaz regionlarında onlarca layihənin iştirakçısı olub. Odur ki, Tokiodakı baş mənzil qərargahından əlavə, dünyanın bir sıra ölkələrində də nümayəndəlikləri var.

"İnpeks" indiyədək İndoneziya, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Azərbaycan və digər ölkələrdə çalışıb.

Xarici investisiyaların qorunması üçün yaradılan şərait, bağlanmış müqavilələrin şərtlərinin heç vaxt pozulmaması və digər bu kimi amillər Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdıb. İndi ölkəmiz mükəmməl bir beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yaradıb. Buna misal kimi, AÇG üzrə 2050-ci ilin əvvəlinədək uzadılmış sazişdə layihənin iştirakçılarının heç birinin dəyişmədiyini göstərmək olar. Etibarlı və sınanmış tərəfdaşlarımız sırasında "İtoçu" və "İnpeks" də ölkəmizdə inamla fəaliyyət göstərir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Əsas kapitala 7,3 milyard manatdan çox vəsait yönəldilib

Bu ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyard 395,5 milyon manat vəsait yönəldilmişdir. Sərf edilmiş vəsaitin 67,7 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir.



Ümumi sərmayənin 64,3 faizi məhsul istehsalı, 26,4 faizi xidmət sahələrinə, 9,3 faizi yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 70,8 faizini təşkil etmişdir.

DSK-nın məlumatında bildirilir ki, əsas kapitala yönəldilən sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 55,3, büdcə vəsaitləri 28,1, bank kreditləri 7,9, əhalinin şəxsi vəsaitləri 6,9, büdcədənkənar fondların vəsaitləri 1,5, sair vəsaitlər 0,3 faiz olmuşdur.

7 ayda Bakıda Şpris istehsalı zavodu, DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binası, Qobustan rayonunda "Azərxalça" ASC-nin filialı, Qobustan-Poladlı avtomobil yolu, ƏMDK-nın Əmlak Xidmətləri Məkanı, Mərdəkan-Qala avtomobil yolu, Sumqayıtda "SOCAR karbamid" və Polietilen zavodları, Beyləqanda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli və Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə-Beyləqan avtomobil yolları, bunlardan əlavə, Bakıda 140 yerlik məktəbəqədər təhsil müəssisəsi və 200 çarpayılıq xəstəxana, Naxçıvan MR-də 1170 şagirdlik 2 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, 2 ambulatoriya-poliklinika, Goranboy, Qobustan və Şəmkir rayonlarında 440 çarpayılıq 3 xəstəxana və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

## Qeyri-neft məhsullarının ixracında 15,7 faizlik artım var

İlin əvvəlindən ötən 6 ayda Azərbaycan dünyanın 177 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 103 ölkəyə məhsul ixrac, 164 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, cari ilin yanvar-iyun aylarında ölkənin xarici ticarət dövriyyəsi 16 milyard 866,2 milyon, o cümlədən ixracın dəyəri 9 milyard 850,6 milyon, idxalın dəyəri 7 milyard 15,6 milyon dollar təşkil etmiş, nəticədə 2 milyard 835 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 15,2, o cümlədən idxal 50,5 faiz artmış, ixrac 1,4 faiz azalmışdır. Real ifadədə isə dövriyyə 6,5, o cümlədən idxal 19,6, ixrac 0,4 faiz artmışdır.

Hesabat dövründə ölkədən 979,1 milyon dollarlıq qeyri neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da 2018-ci ilin yanvar-iyun aylarına nisbətən faktiki qiymətlərlə 15,7, real ifadədə isə 11,1 faiz çoxdur. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (36,3 faiz), Türkiyəyə (21,8 faiz), Gürcüstana (8,7 faiz), İsveçrəyə (7,5 faiz), İtaliyaya (3,1 faiz), Ukraynaya (2,4 faiz), Yunanıstana (1,8 faiz), İrana (1,8 faiz), Çinə (1,7 faiz) və Almaniyaya (1,2 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

## Miqrasiya saldosu yenə müsbətdir

İlin əvvəlindən ölkə əhalisinin sayı 38118 nəfər və ya 0,4 faiz artaraq 2019-cu il iyul ayının 1-i vəziyyətinə 10 milyon 19575 nəfərə çatmışdır.



Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1003 qadın düşür. Bir kvadratkilometrə düşən əhalinin sayı isə 116 nəfərdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 66687 doğulmuş körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyişməyərək eyni səviyyədə (13,6) qalmışdır. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi qız uşaqlarıdır. Körpələrdən 1478-i əkiz, 36-sı üçəm doğulanlardır.

Cari ilin yanvar-iyun aylarında ölkədə 28745 ölüm halı qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6-dan 5,9-a düşmüşdür.

Bu dövrdə qeydiyyat şöbələri tərəfindən 29391 nikah və 8257 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7-dən 6-ya, boşanmaların sayı 1,5-dən 1,7-yə qədər artmışdır.

Cari ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 911 nəfər gələn, Azərbaycandan isə 735 nəfər gedən qeydə alınaraq miqrasiya saldosu müsbət 176 nəfər təşkil etmişdir.

## Hasilat səviyyəsi sabit qalmışdır

Cari ilin ikinci rübündə SOCAR öz imkanları hesabına müstəqil olaraq 1,9 milyon tondan çox neft, 1,7 milyard kubmetrə yaxın qaz hasil etmişdir. Bununla hasilat səviyyəsi əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qalmışdır.



Şirkətin istismar etdiyi neft və qaz yataqlarında hasilat səviyyəsinin sabit qalması üçün həyata keçirilən kompleks tədbirlər planının icrası davam etdirilmiş, istismardan çıxarılmış bir sıra köhnə quyuların fəaliyyəti bərpa olunmuş, yeni quyular qazılmış, ümumilikdə qazma işlərinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən artırılmışdır.

Cari ilin ikinci rübündə şirkət üzrə həmçinin 41 min metrdən artıq qazma işi aparılmışdır.

## Pulu nəyə və nə qədər xərcləyirik

DSK-nın yaydığı məlumata görə, cari ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,9 faiz üstələyərək 21,1 milyard manata bərabər olmuşdur.



Ticarət dövriyyəsinin 10,6 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10,5 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. Satılmış məhsulların dəyəri 2018-ci ilin yanvar-iyul aylarına nisbətən real ifadədə müvafiq olaraq 2,5 və 3,2 faiz artmışdır.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,4 faizi ərzaq məhsullarının, 4,8 faizi içkilər və tütün məmulatlarının, 17,9 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,0 faizi elektrik malları və mebellərin, 5,5 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

7 ayda əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 305,1 manat (2018-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 12,4 manat çox) olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 153 manatlıq ərzaq, içki və tütün məmulatları, 152,1 manatlıq qeyri-ərzaq məhsulları almışdır.



# TURİZM



**● Təbii sərvətlərimiz**

# Turizmin inkişafına dövlət qayğısı

**Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Respublikamızda turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" yeni qanun layihəsi, həmçinin 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası hazırlanıb.**







Azərbaycanda 2011-ci ilin "Turizm ili" elan edilməsi ölkəmizdə turizmin inkişafında mühüm nəticələr əldə olunmasına, əlverişli coğrafi mövqeyi, iqlimi, mədəni-tarixi irsi, qonaqpərvərliyi, daxili sabitliyi, gözəl təbiəti olan ölkəmizin tezliklə dünyanın turizm mərkəzlərindən birinə çevrilməsinə öz töhfəsini verdi. 2002-ci ildən etibarən hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AITF) keçirilməsinin ənənə halını alması ölkəmizdə turizmin inkişafına göstərilən diqqətin bariz nümunəsidir.

Bakıda, eləcə də ölkəmizin ayrı-ayrı regionlarında biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilib. Ölkə rəhbəri 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum 3 saat ərzində verilməsinə dair sərəncam imzalayıb, həmin vaxtdan "ASAN viza" sistemi yaradılıb. Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında fərman imzalayıb.

Respublikamızdakı ictimai-siyasi sabitlik, əmin-amanlıq, yüksək səviyyəli təhlükəsizlik, infrastruktur və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, viza sisteminin sadələşdirilməsi, şübhəsiz ki, artımı təşviq edir.

Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, Azərbaycanda turizm çox geniş imkanlara malik olmalıdır: "Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri var. Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, hotellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ müalicəvi mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək".

Ölkəmizdə turizm sahəsinə qoyulan sərmayə öz bəhrəsini verir. Yeni və müasir hotellər, dünya standartlarına uyğun yollar, bir sözlə, yaradılan infrastruktur Azərbaycanı daha da cəlbedici edib. Odur ki, 2018-ci ildə respublikamıza gələn turistlərin sayı təqribən 6 faizə yaxın artıb.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

**● Müalicə-sağlamlıq**

# Ölkəmizdə sağlamlıq turizmi ildən-ilə inkişaf etdirilir

**Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da son illər müalicə turizminin inkişafına böyük önəm verilir. Təbii müalicə qaynaqları, münbit təbii-coğrafi şəraiti olan Azərbaycanda ölkə Prezidentinin diqqət və qayğısı sayəsində bu turizm növü ildən-ilə inkişaf edir.**



Ölkəmizdə müalicə turizminin inkişafında Naftalan nefti, duz mədənləri, palçıq vulkanları, bulaqlar, mineral sular və termal qaynaqlar üstünlük təşkil edir. Azərbaycanın kurort imkanlarına metan və kükürdlü oksigen suları, mineral palçıqlar, göllər, çimərliklər və s. daxildir. Son illər bu sahənin inkişafını və aparılacaq müalicəvi işlərin səmərəliliyini təmin etmək məqsədilə müxtəlif qanunlar qəbul edilib. Xüsusilə Xəzərboyu ərazilərdə kurort, sanatoriya və digər istirahət yerlərinin yaradılması üçün əlverişli şərait yaradılıb. Odur ki, ölkəmizə müalicə-sağlamlıq turizminin xətti ilə Rusiya Federasiyasından, Özbəkistandan, Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan, Ukraynadan, Latviyadan, habelə Almaniyadan, Türkiyədən, Kanadadan, İsraildən, Polşadan, Fransadan, İspaniyadan, İtaliyadan, Yaponiyadan, Çindən, Birləşmiş Ərəb Əmirliklərindən və digər ölkələrdən minlərlə turist gəlmişdir.

Müalicə-sağlamlıq turizmində Naftalan neftinin xüsusi yeri var. Mütəxəssislərin fikrincə, Naftalan nefti dünyada bənzəri olmayan nadir müalicə vasitəsi hesab edilir. Vaxtilə Naftalan nefti xarici ölkələrə aparılır və orada müalicə məqsədilə istifadə olunurdu. Naftalan nefti əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qaraciyər xəstəliklərinin, oynaqların və dayaq-hərəkət aparatına aid oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitələrdən biridir. Naftalanda dünyada yeganə olan bir muzey var ki, onun da eksponatları - atılmış qoltuq ağaclarıdır. Xəstələr sağaldığı üçün onlara qoltuqağacları daha lazım olmur.

Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti illərində Naftalan şəhərində geniş quruculuq və abadlıq işlərinə start verildi, müalicə mərkəzləri inşa olundu. SSRİ-nin dağılmasından sonra bu sahə bir müddət diqqətdən kənarda qalsa da, Ümummilli Liderin ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra Naftalana diqqət daha da artırıldı. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi və tövsiyələri əsasında görülən işlər, müasir hotel və müalicə mərkəzinin yaradılması, yeni iş yerlərinin açılması ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Dövlət başçısının diqqət və qayğısı sayəsində Naftalanda böyük infrastruktur layihələri həyata keçirilmiş, insanların istirahəti və müalicəsi üçün hər cür komfortlu şərait yaradılmışdır. Hazırda iki müasir müalicə-sağlamlıq mərkəzinin tikintisi davam etdirilir. Onlardan biri şəhərin Nizami küçəsində inşa edilən dördmərtəbəli 288 yerlik "Gold Naftalan" müalicə və sağlamlıq mərkəzidir. İkinci müalicə və sağlamlıq mərkəzi isə "Naftalan Hotel SPA" adlanır. Mərkəzin tikintisində 35 nəfər çalışır. 10 mərtəbəli binada artıq inşaat-tamamlama işləri görülür. Mərkəzin ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulub. Ümumiyyətlə, müalicə-sağlamlıq turizminin inkişafı baxımından Naftalan neftinin şöhrəti Azərbaycanın sərhədlərini aşıb keçdiyindən xarici ölkələrdən buraya müalicəyə gələnlərin sayı ildən-ilə çoxalır. "Qarabağ", "Qaşaltı" və "Çinar" sağlamlıq mərkəzlərində yaradılan şərait hər cür müalicə və istirahət üçün təminat yaratdığından son 5 ildə bura gələn turistlərin sayında 10 dəfədən çox artım müşahidə olunub.



Qeyd etmək yerinə düşər ki, müalicə-sağlamlıq məqsədilə ölkəmizdəki kükürdlü sulardan istifadə etməyə gələnlərin də sayında artım var. Bu tipli müalicə ocaqlarının sayının artırılması üçün ölkəmizdə çoxlu mineral bulaqlar var. Onların ətrafının abadlaşdırılıb dünya standartlarına uyğun müalicə mərkəzlərinə çevrilməsi üçün ölkə Prezidentinin tapşırığına əsasən, aidiyyəti qurumlar, ilk növbədə yerli icra hakimiyyəti orqanları lazımi işlər görürlər.



Məsələn, Qubada, Qalaaltı suyunun yaxınlığında buraya gəlmək arzusunda olanlar üçün hər cür şərait yaradılıb. Masallıda İstisu müalicə mənbəyi, Naxçıvanın Culfa rayonunda Darıdağ termal suyu dillər əzbəridir. Bu sular tərkibində 18 mineralı birləşdirir. Bu minerallar müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Darıdağdakı sanatoriyanın xidmətindən və müalicəvi səmərəsindən razı qalan turistlərin söyləmələrini eşidib bura gəlmək arzusunda olan insanların sayı mövsümdən-mövsümə çoxalır. Qonşu İran və Türkiyədən xeyli sayda xəstə şəfa tapmaq üçün buraya gəlir.

Azərbaycandakı palçıq vulkanlarının müalicə turizmində yeri və rolu əvəzsizdir. Dünyada mövcud olan 2500 vulkandan 353-ü ölkəmizdədir. Onlardan 200-ü quruda, 153-ü dənizdədir. Vulkan palçığı müalicəvi əhəmiyyətə malikdir. Belə ki, vulkanların palçığından 10-dan çox xəstəliyin müalicəsində istifadə olunur. Vulkan palçığı dəri, onurğa sütunu, mədə-bağırsaq traktı, şəkərli diabet xəstəlikləri, ginekologiya, urologiya, kosmetologiya sahələri və s. üçün faydalıdır. Azərbaycana gələn turistlər palçıq vulkanları ilə tanış olmağa meyillidirlər. Xüsusilə yaşlı turistlər müalicə məqsədilə palçıq vulkanlarını ziyarət etməyə üstünlük verirlər. Bir çox ölkələrdə palçıq vulkanlarının palçığından müxtəlif məqsədlər üçün istifadə olunur. Azərbaycanda vulkan palçığı neftlə qarışıq olduğu üçün o, daha keyfiyyətlidir, kimyəvi tərkibinə görə Naftalan nefti ilə təxminən eynidir. Buna görə də Azərbaycan vulkanlarının beynəlxalq ekoturizmə qatılması günün tələbidir. Bir neçə il əvvəl həmin vulkanlar seçilib və turistlər üçün 6 marşrut müəyyənləşdirilib. Bununla yanaşı, ötən il 25 vulkana aid üç dildə bələdçi kitabçası nəşr olunub.

Azərbaycanda mövcud olan palçıq vulkanları müalicə-sağlamlıq turizminin inkişafında mühüm rola malikdir. Müalicə-sağlamlıq üçün faydalı olan palçıq vulkanlarının olduğu rayonlardan biri də Salyandır. Salyanda Şirvan Dövlət Təbiət Qoruğundakı palçıq vulkanları 122 hektar ərazini əhatə edir. Ərazidə yerləşən Bəndovan dağında onlarla palçıq vulkanı bu gün də fəaliyyətdədir. Bəndovan palçıq vulkanı Bakı şəhərindən 80 kilometr cənub-qərbdə, dəniz sahilində yerləşir. Oturacağın diametri 2 kilometr, hündürlüyü 87 metrdir. Dağın şimal-şərq və cənub-qərb yamacları dərin yarğanlarla parçalanıb. Burada qaz, lil, neft qabarcıqlı bulanıq su çıxan çoxlu sayda qrifonlar və salzalar qrupu var. Buradakı vulkanlar bir neçə dəfə püskürüb.

Salyan ərazisində müalicəvi təbii palçıq çıxır ki, bunun da bir çox xəstəliklərin, o cümlədən sümük, oynaq sistemlərinin və sinir xəstəliklərinin müalicəsində çox gözəl təsiri var. Bu səbəbdəndir ki, ölkəmizə gələn turistlər Salyan və Bəndovanda palçıq vulkanının çıxdığı ərazilərə böyük maraq göstərirlər.

Dünyada olan palçıq vulkanlarının 70 faizə qədəri Azərbaycanda, xüsusən də Abşeron yarımadası, Qobustan ərazisi, Şirvan, Dağlıq Şirvan və Ceyrançöl ərazilərindədir. Dünyadakı ən böyük palçıq vulkanı - Torağay da Azərbaycandadır. Palçıq vulkanları minlərlə mikroorqanizmlə zəngindir. Mütəxəssislərin fikrincə, palçıq tullantılarının tərkibində karbon, yod, bioloji aktiv maddələr, ion şəklində elementlər və insan orqanizmi üçün əhəmiyyətli olan yüzlərlə mineral var.

Azərbaycanda müalicə-sağlamlıq turizminin beynəlxalq səviyyədə inkişafı üçün istənilən qədər potensial var. Buna görə ölkəmizdəki bütün təbii müalicə-sağlamlıq vasitələrinin xarici ölkələrdə təbliğinə diqqət artırılmalı, mövcud imkanlar daha da genişləndirilməlidir.

***R.SALMANLI,***
***"Azərbaycan"***

**● Kənd turizmi**





# Rahat və qənaətli istirahət

**Səsli-küylü şəhər mühitindən uzaqlaşmaq, kənd evlərində yaşayıb istirahət etmək, təmiz ərzaq məhsulları ilə qidalanmaq hər bir insan üçün arzuedilәndir. Ölkəmizin əlverişli coğrafi mövqeyi, gözəl təbiəti, mədəni-tarixi irsi, özünəməxsus mətbəxi, eləcə də sakinlərin yüksək qonaqpərvərliyi turistlərin diqqətini xüsusilə cəlb edir.**





Habelə dövlət başçısının diqqət və qayğısı ilə kənd turizmi nəinki rayon mərkəzlərində, ucqar kəndlərdə də inkişaf edir. Bu inkişaf iqtisadiyyatın güclənməsindən əlavə, əhalinin gəlirlərinin artmasını, ən əsası isə regionların sosial-iqtisadi inkişafını daha da sürətləndirir. Nəticədə flora və faunası zəngin olan Azərbaycanın bölgələrində turizm üçün geniş imkanlar açılır. Belə bölgələrdən biri də Göygöl rayonudur.

Rayon icra hakimiyyətinin başçısı Arif Seyidovla söhbət zamanı dedi ki, rayonda turizmin sürətli inkişafı bir neçə amillə xarakterizə olunur. Onlardan ən başlıcası yerlərdə infrastrukturun yenilənməsi ilə yanaşı, alman irsinə hörmətlə yanaşılmasıdır. 1819-cu ildə alman kolonistləri tərəfindən Helenendorf kimi əsası qoyulan Göygöl şəhəri açıq səma altında Avropa mədəniyyətinin izlərini yaşadan muzeyi xatırladır. Bu amil avropalılarda Göygölü görməyə böyük maraq yaradır. Bütün bunlar nəzərə alınaraq vaxtilə alman ailələrinin yaşadıqları evlərin əvvəlki görkəmi saxlanılmaqla əsaslı təmir edilmişdir. Rayona gələn xarici turistlər içərisində almaniyalı qonaqlar daha çox olur. Onlar istirahətlərini səmərəli keçirməklə, vaxtilə burada məskunlaşan ata-babalarının həyat tərzi, məişəti, eləcə də mədəni irsi ilə yaxından tanış olurlar.

Göygöl rayonunda yaşı əsrlərlə ölçülən çoxlu sayda abidə var. Çaykənd kəndində "Ağ körpü", "Qabriel kilsəsi", XII əsrə aid türbə, üçtağlı körpü (Gəncə çayı üzərində), Anahid məbədi, birtağlı körpü, qala (XII əsr) və s. tarixi abidələr mövcuddur. Bundan başqa, rayon ərazisində 31 yerli əhəmiyyətli abidə, 8 kurqan, nekropol və açıq düşərgə var. 1854-cü ildə almanlar tərəfindən inşa edilən Lüteran kilsəsi isə hazırda tarix-diyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir. Muzeyin 2000-dən artıq eksponatı var ki, bu da alman turistlər tərəfindən maraqla qarşılanır.

Əlbəttə, bütün bunlar Göygöl rayonunun nə qədər maddi-mədəni abidələrlə zəngin olduğunun göstəricisidir. Lakin bütün bunlarla yanaşı, turistləri özünə cəlb edən əsas məsələlərdən biri rayonun təbiətinin əsrarəngiz olmasıdır. Odur ki, son illər Göygölün kəndlərində qalıb istirahət etmək istəyən yerli və xarici turistlərin sayında nəzərəçarpacaq sayda artım qeydə alınmışdır. Onlar ekoloji cəhətdən saf və təmiz olan kəndlərə üz tutmağa üstünlük verirlər. Bunun üçün rayonda hər cür imkan və şərait yaradılıb. Son illər rayonda turizm infrastrukturunun inkişafı istiqamətində uğurlu addımlar atılmışdır. Xüsusilə kənd turizminin inkişaf etdirilməsi üçün diqqət və qayğı daha da artmışdır.

Göygöl rayonu Azərbaycanın qərbində dağlıq və dağətəyi zonada yerləşir. Ən yüksək nöqtəsi dəniz səviyyəsindən 3724 metr hündürlükdədir. Rayon şimalda Gəncə və Samuxla, şərqdə Goranboyla, cənubda Kəlbəcərlə, cənub-qərbdə Daşkəsənlə, qərbdə isə Şəmkirlə həmsərhəddir. 39 kəndi olan rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Lakin son illər rayon sakinlərinin bir qismi dövlət başçısının qayğısı ilə inkişaf etdirilən kənd turizmindən gələn gəlir hesabına dolanışıqlarını təmin edirlər. Bunun əsas səbəblərindən biri ən ucqar kəndlərə yeni yolların çəkilməsi, su, qaz, enerji təminatında yaradılan layihələrin icrası olmuşdur. Yaradılan infrastrukturdan bəhrələnən kəndlərin sakinləri istər yerli və istərsə də xarici turistlərin qəbulunda heç bir çətinliklə qarşılaşmırlar. Əksinə, mənzillərini turistlərə kirayə verməklə yanaşı, onlara müxtəlif xidmətlər göstərərək əlavə qazanc götürürlər. Hətta turistlərin istəyi ilə onlara ekoloji cəhətdən təmiz olan ərzaq məhsulları da təklif edirlər. Bu mənəvi və maddi zənginliklər yerli turistlərlə yanaşı, əcnəbiləri də özünə cəlb edir. Nəticədə "yaşıl turizm", yəni kənd turizmi sürətlə inkişaf edir.

Ölkəmizdə turizm mövsümü davam edir. Respublikamızın digər bölgələrində olduğu kimi, Göygöl rayonunda da yerli və xarici turistlərin sayı durmadan artır. Kənd sakinlərinin əsas diqqəti evlərində saxladıqları turistlərə yüksək səviyyədə xidmət göstərməyə yönəldilmişdir. Hazırda rayonun elə bir kəndi yoxdur ki, orada istirahət edən olmasın. Turistlər ən çox Göygölə yaxın ərazilərdə yerləşən kəndlərdə istirahət etməyə üstünlük verirlər. Aşıqlı, Yeni Zod, Toğanalı, Topalhəsənli, Üçbulaq, Mixaylovka, Şəhriyar və s. kəndlərdə dincələn turistlər çox asanlıqla Göygöl Milli Parkının ərazisinə səyahətə çıxır, istirahətlərini təbiətin qoynunda keçirirlər.

Rayonda ən çox turist qəbul edən kəndlərdən biri də Aşıqlıdır. Gəncədən cəmi 10 kilometr məsafədə yerləşən bu yaşayış məntəqəsində turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Yeni çəkilmiş geniş və rahat asfalt yol kənarlarında bişirilən təndir çörəyinin ətri ətrafa yayılır. Azərbaycanın dağlarında bitən dərman bitkilərinin, müxtəlif meyvələrin, kənd məhsullarının satışı insanlarda ruh yüksəkliyi yaradır. 2350 nəfər sakini olan kənddə 400-dən çox ev var. Kənd Hacıkənd və Göygölə gedən yolun üstündə olduğundan turistlər burada qalmağa daha çox üstünlük verirlər. Odur ki, kənd sakinləri hər il mövsümqabağı evlərini təmir etdirir, turistlər üçün rahatlıq yaradırlar. Onlar çalışırlar ki, ikinci gəlir yeri kimi turistləri cəlb etməklə daha çox qazanc əldə etsinlər.

Aşıqlı kəndinin sakini Lamiyyə Əliyeva deyir ki, turistlərin qəbulu üçün böyük imkanları var. Həyətində iki ədəd ev inşa etdirib və bu evlərdə yaradılan şərait imkan verir ki, o, turistləri yüksək səviyyədə qəbul etsin. Eyni vaxtda 20 nəfər turist qəbul etmək imkanı olan ailə gələn il turist qalacaq yeri bir qədər də artırmaq arzusundadır.

Turistlərin üz tutduqları kəndlərin sırasında Çaykənd və Toğanalı da var. Hər il bu kəndlərdə yüzlərlə ailə dincəlir. Əsasən fərdi yaşayış evlərində qalan insanlar yaradılan şəraitdən razılıq edirlər. Çaykənd sakini Elmir Rəcəbov deyir ki, hər il evində onlarla qonaq saxlayır. Turistlərə xüsusi qayğı ilə yanaşır. Yeməkləri, içməkləri, eləcə də gəzintilərinin təşkili üçün lazımi diqqət və qayğı göstərir.

Toğanalı kəndindən Göygölə cəmi 5 dəqiqəyə getmək mümkündür. Odur ki, bu kənddə istirahət edənlərin sayı ildən-ilə artır. Bundan başqa, kəndin özü çox səfalı yerdədir. Toğanalının ortasından keçən çay burada xoş mənzərə yaradır. Gur axan dağ çayının səsi insanların əsəblərinə rahatlıq, ürəklərinə isə sərinlik gətirir. Kəndin ətrafında "Cənnət Məkan", "Ağrıdağı", "Gəncəbasar" və s. istirahət mərkəzləri fəaliyyət göstərsə də yerli turistlər kənd turizminə daha çox üstünlük verirlər. Çünki həmin mərkəzlərdə qiymətlərin baha olması onları qane etmir.

Göygölə gedən yolun yenidən qurulması da bölgəyə gələn turistlərin çoxalmasına imkan vermişdir. Rayon mərkəzindən Göygölə uzanan yolun yenidən qurulması insanlara rahatlıq gətirmişdir. Yol genişləndirilmiş, əvvəllər mövcud olan yöndəmsiz köşklər yığışdırılmış və infrastruktur müasirləşdirilmişdir.

Ümumiyyətlə, rayonda turistlərin rahat dincəlib istirahət etmələri üçün bütün infrastruktur yaradılmışdır. Ən başlıcası ölkədə mövcud olan ictimai sabitlik burada da hökm sürür. Günün bütün vaxtlarında təbiətin qoynuna çıxıb dincəlmək üçün hər cür imkan və şərait var. Odur ki, bu bölgədə dincələn hər kəs növbəti illərdə də buraya gəlmək istəyir. Çünki təmiz hava, təbii su ehtiyatı, yaşıllıq, abadlaşdırılmış kənd şəraiti, təbii mənzərələr və s. qonaqlara rahatlıq gətirir. Məhz bunun nəticəsidir ki, rayona hər il Türkiyədən, Almaniyadan, Rusiyadan, Gürcüstandan, İrandan, Yaponiyadan, İsveçrədən, həmçinin Ruminiyadan yüzlərlə turist gəlir. Yerli sakinlər qonaqpərvərliklə onlara yüksək səviyyədə xidmət göstərirlər. Bu da turistlərin növbəti illərdə də istirahətlərini burada keçirmələrinə zəmin yaradır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Mənəvi Dəyərlərin Təbliği Fondu regionlarda aktual mövzulara həsr edilmiş tədbirlər keçirir





Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun əsas fəaliyyət istiqamətlərindən biri mənəvi dəyərlərin təbliği sahəsində çoxşaxəli və genişmiqyaslı tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Bu məqsədlə fond tərəfindən bir sıra istiqamətlər üzrə müxtəlif mövzulu tədbirlər, seminar-treninq və seminar müşavirələr təşkil edilir. Belə ki, fond tərəfindən dünyada gedən qloballaşma prosesi, bunun əsnasında milli kimliyimizin qorunması, gənc nəslə milli kimlik anlayışının aydın şəkildə çatdırılmasının təmin edilməsi məqsədilə “Qloballaşma və milli kimlik” mövzusunda seminar-treninqlər keçirilir.



Seminar-treninqlər indiyədək Sumqayıt şəhəri, Lerik, Oğuz, Xaçmaz rayonlarında keçirilmişdir. İlin sonunadək Balakən, Biləsuvar, İsmayıllı, Zaqatala, Astara, Gədəbəy və Bərdədə eyni mövzuda seminar-treninqlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Mənəvi Dəyərlərin Təbliği Fondunun 2019-cu ildə həyata keçirdiyi daha bir silsilə seminar-müşavirə “Müasir cəmiyyətdə gənclər və mənəviyyat” mövzusuna həsr edilib. Gənclərin mənəvi dəyərlərin təbliği işinə cəlb edilməsi, onların mənəviyyat dünyasının zənginləşməsinə həsr edilmiş seminar-müşavirələr bugünədək Tovuz, Yardımlı və Şabran rayonlarında keçirilmiş, ilin sonunadək isə belə tədbirlər Qax, Ağdaş, Neftçala, Saatlı, Beyləqan, Füzuli, Tərtər, Ağsu və Ağdam rayonlarında gerçəkləşdiriləcəkdir.

Bununla yanaşı, fondun təşkilatçılığı ilə cəmiyyətin təməlini təşkil edən ailə institutu ilə bağlı “Azərbaycan ailəsi” mövzusunda regionlarda konfranslar keçirilməkdədir. Fond ailə dəyərlərinin təbliği və ailədə sağlam mühitin qorunaraq gücləndirilməsinə töhfə vermək məqsədilə bu aktual mövzunu daim diqqət mərkəzində saxlayır. “Azərbaycan ailəsi” mövzusunda konfranslar Kürdəmir, Yevlax, Masallı, Tovuz, Daşkəsən rayonlarında, Sumqayıt və Mingəçevir şəhərində təşkil edilmişdir. Növbəti aylarda “Azərbaycan ailəsi” mövzusunda konfranslar Bərdə, Ağstafa, Zərdab, Hacıqabul və Şəmkir rayonlarında keçiriləcəkdir.

Fond tərəfindən təşkil edilən tədbirlərdə ekspert qismində ölkəmizin tanınmış ziyalıları, elm adamları və müxtəlif sahələr üzrə mütəxəssislər iştirak edir, dinləyicilərlə diskussiyalar və geniş fikir mübadiləsi aparılır.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər baş tutub









Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birləşmə və hissələrin ştat şəxsi heyəti S-125 zenit-raket komplekslərindən şərti düşmən hədəflərini aşkarlayaraq praktiki şəkildə məhvetmə tapşırığını müvəffəqiyyətlə icra edib. Keçirilən təlimlərin məqsədi şəxsi heyətin praktiki vərdişlərini təkmilləşdirmək və döyüş qabiliyyətinin yüksəldilməsinə nail olmaqdır.

# “Hərbi-tibbi estafet” müsabiqəsində hərbi həkimlərimiz medalla təltif olunub






“Beynəlxalq Ordu Oyunları - 2019” yarışları çərçivəsində Özbəkistanda keçirilən “Hərbi-tibbi estafet” müsabiqəsinə komanda birinciliyi yarışları ilə yekun vurulub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın kişilərdən ibarət komanda heyəti hakimlərin qərarına əsasən 11 komanda arasında 111 xalla üçüncü yerə layiq görülüb.

Özbəkistan və Qazaxıstan komandaları isə müvafiq olaraq birinci və ikinci yerlərdə qərarlaşıblar. “Hərbi-tibbi estafet” müsabiqəsinin təntənəli bağlanış mərasimində Azərbaycan Ordusunun kişilərdən ibarət hərbi həkimlər komandası medalla təltif olunub.

# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Rusiyanın və İranın hərbi gəmiləri Bakı limanını tərk edib

Rusiyanın və İranın hərbi gəmiləri Bakı limanını tərk edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, “Dəniz kuboku - 2019” beynəlxalq müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının “Mahaçkala” və “Volqodonsk” kiçik artilleriya gəmiləri və İran Hərbi Dəniz Qüvvələrinin “Peykan” və “Cövşən” raket katerləri avqustun 16-da vətənə yola düşüb.









# Tacı yerə qoymazlar

## Milli Park milli əxlaqımızı nümayiş etdirməlidir

*Əvvəli 1-ci səh.*

110 il əvvəl təməli qoyulan Dənizkənarı bulvar bu gün Milli Park kimi Bakının tacına çevrilib. Artıq ikinci yüzilliyini yaşayan bulvarın uzunluğu sovet illəri ilə müqayisədə 10 dəfəyə yaxın artıb. Bir neçə il də keçsə Milli Parkımız dünyanın ən uzun bulvarı kimi adını dünya memarlığı tarixinə həkk edəcək. Bura həqiqətən də fantastik məkandır, müsbət aurası, unikal memarlığı hər bir insanı valeh etmək gücünə qadirdir.

Bakı bulvarına ayağın dəyən kimi anlayırsan ki, dünyanın ən gözəl guşəsindəsən, nadir məkandasan. Burada ruhun dənizlə pıçıldaşa bilir, səmalarda üzən buludlara toxunur, ətrafındakı gözəlliklər sənə mənəvi zövq verir. Burada nə varsa qeyri-adidir və elə düşünülüb ki, dəniz boyu gəzişdikcə mənzərələr gözlənilməz memarlıq abidələrinin təsiri altında dəyişir. Sən təəssüratların bolluğundan, hətta üzünə toxunub saçlarını dağıdan küləyin şıltaqlığından və nəvazişindən zövq alırsan. Sanki açıq səma altında nadir bir muzeydəsən. Özündən asılı olmayaraq Milli Parkla, Bakı və ölkənlə öyünürsən ki, bütün bu gözəlliklər dünyanın başqa şəhərində yox, sənin vətənində, torpağında yaradılıb və sənə məxsusdur!

Buraları gəzib dolaşdıqca Xəzərin boyuna biçilmiş əsrarəngiz göydələnləri seyr edirsən və anlayırsan ki, bu, hələ son deyil! Milli Park yenə görkəmini dəyişəcək, ildən-ilə gözəlləşəcək və əsrarəngiz əfsanə kimi dünyanın növbəti möcüzəsinə çevriləcək. Tac-Mahaldan, Çin səddindən, Misir ehramlarından necə danışırlarsa, Bakının Milli Parkı da eləcə dillərdə dastana çevriləcək.

Bulvarda attraksionlar, kafelər, səyyar ticarət və xidmət obyektləri, yeni elektrobuslar, dəniz gəmiləri və s. gəzinti marşrutları işləyir. Ürəyin nə istəsə, burada tapa bilərsən. Əvvəllər nadir halda gözə dəyən əcnəbi turistlərin sayı da xeyli artıb. Ən maraqlısı odur ki, burada heç kim özünü qərib hiss etmir, təhlükəsizliyindən yana təlaş keçirmir. Çünki Milli Parkda bu məsələlər yüksək səviyyədə həll edilib.

Amma gəl ki, biz bu gözəlliklərin qədrini heç də həmişə bilmir, ona dəyər gətirən davranış nümayiş etdirmirik. Azərbaycana qonaq gələn dostlarım dəfələrlə ölkəmizdə hamının mehriban, nəcib və qonaqpərvər olduğunu, Bakı bulvarının isə Parisin və dünyanın digər bulvarlarını kölgədə qoyduğunu deyiblər. Bu həqiqəti ölkəmizə gələn yüz minlərlə qonaq, o cümlədən məşhur siyasətçilər, diplomatlar və müxtəlif dövlət başçıları da etiraf edirlər. Amma bu gileyimizlə məqsədimiz Bakı bulvarının gözəlliyini intellektual səviyyələrinin dayazlığı səbəbindən dərk etməyənləri etik çərçivələrə dəvət etməkdir. Milli Park Bakının tacıdırsa, ona biganə yanaşmaq, onunla layiq olmadığı tərzdə davranmaq böyük qəbahətdir. Tacı gərək başının üstündə saxlayasan, qoruyasan! Lap elə vicdanın kimi! Çünki ölkəyə gələn istənilən əcnəbi səni görməsə də, səni elə bulvara görə tanıyır, oradakı yeniliklərə görə sənə bir azərbaycanlı kimi rəğbət bəsləyir, qibtə edir.

Bir neçə gün əvvəl bulvara axşam gəzintisinə çıxmışdıq. Ümumi sakit insan selinin içində qəfildən gördük ki, biri özünü apara bilmir, ətrafındakılara məhəl qoymadan telefonla bərkdən danışır, aktyorluq edir, sanki özünü, danışığını hamının gözünə soxmağa çalışır. Kimsə də demir ki, ay oğul, qışqırma, sən meşədə deyilsən, Milli Parkdasan!

Bir qədər gəzmişdik ki, bundan daha əcaib səhnə ilə rastlaşdıq. Bulvarda xüsusi velosiped marşrutlarının olmasına baxmayaraq, insanların gur gəzişdiyi yerdə qəfildən velosipedçilər peyda oldu, insan selinin arasındakı “cığırlar”la güllə kimi şütüməyə başladılar. Qorxdum ki, nəvəmi vura bilərlər, uşağı götürdüm qucağıma. Nə edə bilərdim, görürdüm ki, bu üzdəniraq idmançılara velosiped sürməkdən daha çox insan axınının içində şütümək ləzzət verir. Heç nə veclərinə deyil, heç kimlə toqquşmaqdan rahatsız deyillər! Hətta biri vardı, velosipedinə musiqi qoşub bağırırdı.

Ağzıaçıq it gəzdirənlər də başqalarında vahimə yaratdıqlarının fərqində deyillər. Onlardan gen qaçan uşaqları və qadınları görməzliyə vururlar. Necə ki, bulvarın ştatlı keşikçiləri onları “görmürlər”, qaydalara əməl olunmasını tələb etmirlər!

Bizim xanımların bulvarda tum çırtlaması isə ayrı mövzudur. Dəstə ilə gəlirlər, hərəsinin yanında bir neçə uşaq lövbər salıb əyləşirlər oturacaqlarda. Və başlayırlar tum çırtlamağa, özü də necə? Çənə robot kimi durmadan şaqqıldayır, əl aramsız olaraq tumu ağıza atır, dodaqlar da snayper kimi qabıqları ətrafa tullayır. Bu əcaib vərdişə elə uyurlar ki, uşaq-filan yaddan çıxır, olsa-olsa ara-sıra haylayırlar ki, a gədə, ay qız, uzağa getmə... 5-10 dəqiqədən sonra isə görürsən ki, “peşəkar” tum çırtlayanların oturduqları yerin həndəvərində günəbaxan tumları dəniz kimi dalğalanır. Yadıma əcaib reklamdan bir sətir düşür: “Sən qadın deyil, tum çırtlayansan”.

Adamın bir Allahı olar axı, doğrudanmı anlamaq çətindir ki, Bakı bulvarını yaratmayıblar ki, gələsən yayxanasan burada və tum çırtlayıb ətrafını zibilxanaya çevirəsən. Ya da dəniz kənarına çıxıb velosipedlə adamların üstündən tullanasan. Bəzən isə eləsi olur ki, bulvarda öskürüb sinəsini arıtlayır və heç eynini pozmadan içindəkiləri yerə tüpürür. Adamı saxlayasan və soruşasan ki, öz evinə tüpürürsənmi? Vallah, əgər Milli Park aramsız olaraq süpürülməsə, təmizlənməsə, bircə gün bəsdir ki, bizim “tum-çırtlayanlar briqadası” buranı zibilliyə elə çevirsinlər ki, heç oturmağa yer də tapılmasın.

Milli Park dünyanın ən nadir müasir mədəniyyət abidələrindəndir. Tariximizin bir parçası qədər müqəddəs və qiymətlidir. Belə məkanda yerə tüpürmək, tum çırtlamaq, buruntaqsız it gəzdirmək, başqalarının dincliyini pozan tərzdə davranmaq elə öz evində, ailəndə ədəbsizlik etmək qədər ayıb və bağışlanılmayan əməldir.

Bunların qarşısı mütləq alınmalıdır. Yolları da var. Əvvəlcə uşaqlardan başlamaq lazımdır. Bütün bağçalarda, məktəblərdə sanitar mədəniyyətinə, şəhər əxlaqına aid dərslər tədris olunmalıdır. Uşaq hələ bağçada bilməlidir ki, küçədə tüpürmək, ucadan danışmaq, parklarda yerə kağız atmaq, tum çırtlamaq ayıbdır. O ki qaldı uşaqlığı arxada qalanlara, onları da əxlaq qaydalarına dəvət etmək mümkündür. Əslində, Milli Parkın ştatında oturan keşikçilər həm də bunların qarşısını almaq üçündürlər. Niyə loyal davranırlar, anlamaq çətindir! Çox uzatmayaq, hər necə olursa-olsun, belə tədbirlərin görülməsi vacibdir. Əks halda Bakının tacı yerə düşə bilər.

***Bahadur İMANQULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Sənaye və kənd təsərrüfatı məhsullarının istehsalında xeyli artım var

*Əvvəli 1-ci səh.*

İllik istehsal gücü 700-800 ton ət olan “Aqropark”ın, eləcə də Alakol kəndində dənli bitki toxumlarının istehsalı müəssisəsinin tikintisində də işlər davam edir. Eyni zamanda, Alakol kəndində 624, Bozalqanlı kəndində 1200 şagirdlik məktəb binalarında tikinti işləri, Aşağı Quşçu və Köhnəqala kənd məktəblərində əsaslı təmir işləri aparılır. Şamlıq və Güvəndik kəndlərində isə modul tipli məktəb binaları quraşdırılır.

Rayonun yol infrastrukturu da yenilənir. Bu məqsədlə dövlət başçısı 6 sərəncam imzalamış, həmin hesaba ümumilikdə 200 kilometrdən çox yol əsaslı təmir edilmişdir. Bundan başqa, Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi üçün əlavə vəsait ayrılmışdır.

Hazırda Tovuz şəhərində yeni içməli su şəbəkəsindən 8 minə yaxın əhali davamlı olaraq istifadə edir. İndi isə yüksək mərtəbəli binaların su təchizatında olan problemlərin aradan qaldırılması üçün tədbirlər görülür.





Rayonda aqrar sahənin inkişafı istiqamətində də uğurlu göstəricilərə nail olunur. Söz yox ki, kənd təsərrüfatının inkişaf etdirilməsində dövlət dəstəyi başlıca rol oynayır və bunu tovuzlu fermerlər də hər zaman öz fəaliyyətlərində hiss edirlər. Məhz bunun nəticəsidir ki, yarım ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə 21 layihə üzrə 1 milyon 439 min manat güzəştli kredit verilmiş, həmin layihələrin icrası nəticəsində 25 yeni iş yeri açılmışdır.

Tovuzda əhalinin təbii qazla təminatının yaxşılaşdırılması üçün də xeyli iş görülmüşdür. Təkcə cari il 52 yaşayış məntəqəsində 455 abonentə qaz verilmişdir ki, bununla da rayonda mavi yanacaqla təmin olunan evlərin sayı 32 mini keçmişdir. Hazırda Yuxarı Öysüzlü kəndinin yeni yaşayış massivində 71 evin qazlaşdırılması davam edir.

Məlum olduğu kimi, bu il dövlət başçısının təşəbbüsü ilə iki böyük sosial islahat paketi qəbul edilmişdir. Bu sahədə həyata keçirilən işlər Tovuz rayon əhalisinin də güzəranına əhəmiyyətli təsir etmişdir. Belə ki, rayonun 35 min nəfərdən çox sakini hazırda ilk sosial paketdən bəhrələnir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# "Azercell"in Rəqəmsal Dünyası Cocuq Mərcanlıda






Ölkənin telekommunikasiya sahəsinin lideri "Azercell Telekom" MMC avqust ayının 15-də Cocuq Mərcanlıya səfər edib.

Sosialyönümlü layihələrin dəstəkçisi və təşəbbüskarı olan şirkət Cəbrayıl rayonu, Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin şagird və müəllimləri ilə görüşüb, onları məktəb ləvazimatları və digər hədiyyələrlə mükafatlandırıb. Tədbir zamanı orta məktəbin direktoru Zamin Həziyev "Azercell"in bu təşəbbüsünü yüksək qiymətləndirdiyini vurğulayıb. Şirkətin "Mobil Göz" və "Mobil Diş" klinikaları da səfərə qoşulub. Klinikalar 60-dan çox Cocuq Mərcanlı sakinini müayinədən keçirib. Fəaliyyətləri boyunca şirkətin klinikaları on minlərlə valideyn himayəsindən məhrum olmuş uşaqlara, aztəminatlı ailələrə, yaşlılara və məcburi köçkünlərə tibbi yardım göstərib.

Qeyd edək ki, Cocuq Mərcanlı düşmən işğalından azad olunduqdan sonra "Azercell" bu ərazidə stansiya quran ilk operator olub. Cari ilin yanvar ayında bura səfər edən "Azercell" kənd sakinlərinə nömrələr və digər dəyərli hədiyyələr təqdim edib.

Yeni bağlantı erasında istifadəçilərin artan tələblərini qarşılamaq üçün "Azercell" 2018-2019-cu illərdə ölkə boyu 4G şəbəkəsini gücləndirib və genişləndirib. Bu müddət ərzində ölkənin 60-a yaxın rayon və şəhərində 1007 yeni LTE stansiyası qurulub, ümumi stansiyaların sayı 7000-i ötüb. "Azercell" son yarım ildə ölkədə telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırıb. Bunun sayəsində şirkət əhali əhatəsi dairəsində 86.2 faiz, coğrafi ərazi əhatə dairəsində isə 61.4 faiz yüksəlişə nail olub. Həmçinin günlük LTE data istifadəsində 49.6 faiz, LTE yükləmə və ötürmə sürətində isə 16 faizədək artım qeydə alınıb.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Tramp Qrenlandiyanı almaq istəyir?



ABŞ Prezidenti Donald Tramp Danimarkadan Qrenlandiya adasını almaq məsələsi ilə maraqlanır. Bu barədə "The Wall Street Journal" qəzeti Ağ evdəki mənbələrə istinadən xəbər verir.

Mənbələrin məlumatına görə, Tramp Qrenlandiyanı almağın mümkün olub-olmamasını dəfələrlə müşavirləri ilə müzakirə etmiş, adanın ehtiyatlarına və onun geosiyasi əhəmiyyətinə maraq göstərmişdir. ABŞ Prezidentini xüsusilə Amerikanın Arktikada hərbi mövcudluğunu genişlətmək məsələsi maraqlandırır. Qəzetin mənbələri məlumat vermişlər ki, Prezident layihənin hüquqi ekspertizası ilə əlaqədar Ağ evin hüquq məsləhətçisinə müraciət etmişdir. Bununla belə, Trampın bəzi müşavirləri onun ideyasını iqtisadi cəhətdən məqsədəuyğun sayırlar, digərləri isə əmindirlər ki, bu, Prezidentin ötəri istəyidir. ABŞ Prezidentinin bu ideyaya nə dərəcədə ciddi yanaşdığı məlum deyil.

"The Wall Street Journal" qeyd edir ki, bu, Vaşinqtonun Qrenlandiyanı almaq üçün ilk cəhdi deyil. İkinci Dünya müharibəsindən sonra Prezident Harri Trumen Danimarkaya 100 milyon dollar təklif etmiş, amma rədd cavabı almışdır.

## KXDR yeni raket sınaqları keçirdi



Şimali Koreya növbəti dəfə şərq istiqamətində iki raket buraxmışdır. Bu barədə Cənubi Koreya Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsi (QRK) məlumat vermişdir.

Məlumata görə, raket sınaqları Kanvondo əyalətində keçirilmişdir. QRK-nın nümayəndələri bildirmişlər ki, hadisələrin gedişini izləyir və döyüş hazırlığı rejimində qalırlar.

Bu, KXDR-in son üç həftə ərzində həyata keçirdiyi altıncı raket buraxılışıdır. Seul raket buraxılışlarını güc nümayişi kimi qiymətləndirir və Pxenyanın bu hərəkətlərini Cənubi Koreya-ABŞ birgə hərbi manevrləri ilə əlaqələndirir.

## Polşa ABŞ-ın Hörmüz boğazında missiyasına qoşula bilər



Polşa Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyini təmin etmək üçün ABŞ-ın hərbi dəniz missiyası yaratmaq təşəbbüsünü dəstəkləməyə hazırdır. Polşanın Xarici İşlər naziri Yatset Çaputoviç bildirmişdir ki, regionda vəziyyətə reaksiya vermək tələb olunur.

Çaputoviç Varşavanın missiyaya müəyyən dəstək verməsinin mümkün olduğunu qeyd etmiş, amma dəstəyin məhz hansı şəkildə olacağını dəqiqləşdirməmişdir.

Bundan əvvəl ABŞ-ın təşəbbüsünə Böyük Britaniya qoşulmuşdur. Almaniya isə missiyaya qatılmaqdan boyun qaçırmışdır, çünki İrana maksimal təzyiq strategiyasını səhv hesab edir, regionda yaranmış problemlərin diplomatik vasitələrlə həllinə tərəfdar çıxır.

Polşa xarici siyasət idarəsinin başçısı bir sıra avropalı tərəfdaşların ABŞ-a münasibətdə tutduğu mövqeyi tənqid etmişdir. Rəsmi Varşava hesab edir ki, Avropa İttifaqı (Aİ) Amerika tərəfinin arqumentlərinə daha açıq olmalıdır. Çaputoviç qeyd etmişdir ki, Aİ ilə ABŞ arasında ixtilaflar həm Polşaya, həm də Mərkəzi Avropaya mənfi təsir göstərəcək.

## Belçikalı silah alverçisi yaxalandı



Portuqaliyanın Evora dairəsində belçikalı silah alverçisi Jak Mesye həbs olunmuşdur. Bu barədə "Le Soir" qəzeti xəbər verir.

Jak Mesye dünyada ən böyük silah alverçilərindən biridir. 2017-ci ildə o, müharibə aparan ölkələrə qanunsuz olaraq silah, döyüş sursatı, tank, helikopter, təyyarə və digər hərbi avadanlıqlar satdığına görə məhkum olunmuşdur. O vaxt Mesye üç il müddətinə azadlıqdan məhrum edilmiş, 300 min avro məbləğində cərimələnmişdir. Mesye məhkəmənin hökmündən şikayət etmişdir. Ötən ilin oktyabrında işə yenidən baxıldıqdan sonra həbs müddəti bir il uzadılmış, cərimənin məbləği 1,2 milyon avroya çatdırılmışdır. Bundan sonra Mesye Belçikanı tərk edib Portuqaliyaya qaçmışdır.

KİV-in iddiasına görə, son 35 il ərzində elə bir silahlı münaqişə olmamışdır ki, Mesye orada iştirak etməsin.

## Dünyanın ən varlı adamları bir gündə 18 milyard dollar itirdilər



Dünyanın ən zəngin adamları cəmi bir gün ərzində təxminən 18 milyard dollar itirmişlər. "Forbes" jurnalı xəbər verir ki, ABŞ-ın üç əsas fond indeksi (Dow Jones, Nastaq və S&P) avqustun 14-də 3 faiz aşağı düşmüşdür. Jurnalın məlumatına görə, bu səbəbdən dünyanın 10 ən varlı adamının sərvəti təqribən 18 milyard dollar azalmışdır.

Hamıdan çox 3,5 milyard dollar itirən "Amazon"un başçısı Ceff Bezos "kasıblaşmışdır". "Facebook"un təsisçisi Mark Sukerberq 3,2 milyard dollardan məhrum olmuş, LVMH şirkətinin baş direktoru Bernard Arno 3 milyard dollar itirmişdir.

Zərərçəkən varlılar siyahısında həmçinin Bill Qeyts, Uorren Baffet, Amansio Orteqa, Larri Ellison, Larri Peyc və Karlos Slim Xelu yer almışlar. 10-top milyarderlərindən yalnız Nyu Yorkun sabiq meri Maykl Blumberq bir sent belə itirməmişdir.

# Kür çayının aşağı axınında suyun səviyyəsi artıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsindən axan Vəlvələçayda sululuq ongünlük normadan çox olmaqla normanın 180, Kiçik Qafqazın ərazisindən axan Kürəkçay və Zəyəmçayda sululuq ongünlük normadan az və norma daxilində olmaqla 30-100, Lənkəran-Astara bölgəsindən axan Lənkərançay, Vəşərüçay və Viləşçayda isə sululuq ongünlük normadan az və normaya yaxın olmaqla 60-90 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, avqustun 16-da Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 2 santimetr artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 89 kubmetrə bərabərdir. Bu da ongünlük normadan az olmaqla onun 66 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində də suyun səviyyəsində 2 santimetr artım qeydə alınıb. Hazırda məntəqədə su sərfi saniyədə 19 kubmetrə bərabərdir. Bu da ongünlük normadan az olmaqla onun 28 faizini təşkil edir.

Araz çayının Qıvraq məntəqəsində suyun səviyyəsi 1 santimetr azalıb. Hazırda məntəqədə su sərfi saniyədə 33 kubmetr təşkil edir. Bu da ongünlük normadan az olmaqla onun 62 faizinə bərabərdir.

Avqustun 16-da Kür çayının aşağı axınında suyun səviyyəsində artım müşahidə olunub. Belə ki, Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 2 santimetr artaraq 324 santimetr təşkil edib. Şirvan məntəqəsində suyun səviyyəsi 4 santimetr artaraq 65 santimetr olub. Salyanda suyun səviyyəsi 9 santimetr artaraq 89 santimetrə bərabər olub. Bankə məntəqəsində suyun səviyyəsi 1 santimetr azalaraq 155 santimetr təşkil edib. Araz çayının Novruzlu məntəqəsində isə suyun səviyyəsi 5 santimetr artaraq 30 santimetrə bərabər olub.


## BİLDİRİŞ

"Xalq qəzeti"nin 27 iyul və 09 avqust 2019-cu il tarixli nömrələrində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1. Maşın-mexanizmlərin və elektromobillərin ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 10 sentyabr 2019-cu il saat 17:00-a, təkliflərin açılışı isə 12 sentyabr 2019-cu il saat 10:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.

***Tender komissiyası***

## BİLDİRİŞ

### Sumqayıt Şəhər İcra Hakimiyyəti "Sumqayıt şəhərinin 70 illik yubiley tədbirlərinin keçirilməsi, şəhərdə abadlıq və təmir işləri"nin satın alınmasını təkliflər sorğusu üsulu ilə həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 avqust 2019-cu il saat 17:00-a qədər qəbul olunur. Təkliflər sorğusunun təkliflər paketinin açılışı 29 avqust 2019-cu il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 nömrəli ünvanda, Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov, Telefon: (018) 655-14-48.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 02 avqust 2019-cu il tarixli nömrəsində dərc edilmiş Sumqayıt Şəhər İcra Hakimiyyətinin 2019-cu ildə avtomobil yollarının asfalt örtüyünün təmirinin satın alınması ilə əlaqədar açıq tender elanı ləğv olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 28.08.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması üzrə Açıq Tenderin vaxtı 11 sentyabr 2019-cu il saat 16:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 sentyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 10 sentyabr 2019-cu il saat 16:00-a qədər portal vasitəsilə təqdim etməlidirlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"ASK Şəki Şərab" MMC şərab istehsalı üçün lazım olan 1500 ton texniki üzümün satın alınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir. Prosedur 23 avqust 2019-cu il saat 11:00-da bitir.

Maraqlanan təşkilatlar +994 (55) 4001313 telefon nömrəsinə və ya **djamil.gasanli@ask-wine.com** elektron ünvanına müraciət edə bilərlər.

Şəki rayonu Çələbixan qəsəbəsi.

***Tender komissiyası***


# Zaqatala rayonunda baş verən intihar hadisəsi ilə bağlı zəruri istintaq tədbirləri davam etdirilir

Zaqatala şəhərində yaşamış 1980-ci il təvəllüdlü Feyzullayev Musa Feyzulla oğlunun avqustun 15-də Qax rayonunda valideynlərinin yaşadığı evin həyətində özünü asaraq intihar etməsi barədə rayon prokurorluğuna daxil olmuş məlumat əsasında rayon prokurorluğunun və polis şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. İş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülmüş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, meyitin xarici müayinəsi zamanı boyun nahiyəsində stranqulyasiya şırımından başqa hər hansı xəsarət və ya xəsarət izi aşkar olunmayıb. Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İntiharın səbəblərinin araşdırılması məqsədilə iş üzrə mərhumun ailə üzvlərinin və digər şəxslərin ifadələri alınıb.

İlkin istintaq araşdırmaları ilə müəyyən edilib ki, dörd aya yaxın müddətdə Zaqatala rayon Məşğulluq Mərkəzinin müdiri işləmiş mərhum M.Feyzullayevin intihar etməsinə səbəb ailə-məişət zəminində və şəxsi problemləri olub. M.Feyzullayevin intihar etməsi xidməti fəaliyyəti ilə bağlı deyil.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimova əzizi

**GÖVHƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi

**HƏŞİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yasamal rayonundan Əziz Əzizov Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azneftemaş" ASC-nin rəhbərliyi Şahmar Vəliyev və Fərman Həsənov Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi

**HƏŞİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova əzizi

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin əməkdaşı

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin əməkdaşı

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9003
Sifariş 2685
Qiymətı 40 qəpik